# "YAŞIL İSTEDADLAR" MÜSABİQƏSİNDƏ İŞTİRAK ÜÇÜN ELAN

Almaniyanın Federal Təhsil Nazirliyi tərəfindən 2018-ci il üçün "Yaşıl İstedadlar" müsabiqəsi elan edilmişdir (https:www.bmbf.de/de/green-talents-2018-bewerbungsphase-eroeffnet-4077.html).

2009-cu ildən etibarən keçirilən müsabiqənin məqsədi davamlı inkişaf sahəsində fəal olan qabaqcıl gənc alimləri mükafatlandırmaqdan, onlarla Almaniyanın müvafiq elmi-tədqiqat institutları arasında təmaslar yaratmaqdan və ölkəyə elm xadimlərini cəlb etməkdən ibarətdir.

Namizədlər davamlı inkişaf sahəsi üzrə hazırda magistratura /doktorantura pilləsində təhsil alan və yaxud son 3 il ərzində magistr/fəlsəfə elmləri doktoru dərəcəsini almış, eləcədə ingilis dilini mükəmməl bilməlidirlər.

Müsabiqədə iştirak etmək üçün "onlayn" ərizə forması https://secure.pt-dlr.de/ptoutline/app/greentalents2018 internet səhifəsi_vasitəsilə 23.05.2018-ci il tarixinədək təqdim olunmalıdır.

Mükafata layiq görüləcək 25 nəfər 2018-ci ilin oktyabr ayında Almaniyada keçiriləcək 2 həftəlik Elm Forumuna (http://www.greentalents.de/science-forum-2018.php) dəvət olunacaq və sözügedən tədbirdən bir il sonra Almaniyada 3 aylıq elmi-tədqiqat aparmaq imkanı əldə edəcək.

Elm Forumunda və elmi-tədqiqat proqramında iştirskla bağlı müvafiq xərclər Almaniyanın Federal Təhsil Nazirliyi tərəfindən maliyyələşdiriləcəkdir.

Müsabiqədə iştirak üçün qeydiyyatdan keçən namizədlər barədə məlumat verməyiniz (n.mammadova@edu.gov.az) xahiş olunur.